## Problemli kreditlər: səbəblər və həlli yolları

Son zamanlar kredit verilərkən bank mütəxəssisləri tərəfindən müştərinin maliyyə vəziyyətinin düzgün qiymətləndirilməməsi kredit təşkilatlarını bir çox problemlərlə üz-üzə qoyur. Belə ki, müştərinin maliyyə resurları dərindən təhlil edilmədən, o cğmlədən möhkəm girov təminatı olmadan verilən kreditlər sonradan kredit verən təşkilatların, sözün əsl mənasında, başağrısına çevrilir. Bu zaman götürülən kredit məbləği borcalanlar tərəfindən geri qaytarılmır, aylıq kredit ödənişləri gecikdirilir, kredit borcları yığılır və son nəticədə ölkədə problemli kreditlərin həcminin artmasına səbəb olur.

Lakin kredit verilməsi üçün vacib şərtlərə əməl edən kredit təşkilatları sözügedən problemlərlə çox nadir hallarda üzləşirlər. Fəaliyyətlərini qanuna müvafiq şəkildə quran belə kredit təşkilatları kredit verməmişdən öncə, ilk növbədə, borcalanın kredit tarixçəsini, onun intizamlı müştəri olub-olmadığını öyrənmək üçün Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) sorğu göndərirlər. Qeyd edək ki, MKR 2005-ci ildə Mərkəzi Bankın nəzdində ölkə ərazisində fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatlarının (BOKT) cari və potensial borcalanları haqqında etibarlı məlumat almaq, borcalanları bazar intizamına, borcalma nüfuzunun qorunmasına təşviq etmək, banklar və BOKT-lər arasında riskləri minimuma endirmək məqsədilə yaradılmışdır. Bank və BOKT-lərin lisenziyası ləğv edilən və ləğvetmə prosesində olanların, fiziki və hüquqi şəxs borcalanların, həmçinin fiziki şəxslərin kredit kartları üzrə istənilən valyutada olan hər bir krediti haqqında MKR-ə məlumat verməsi məcburidir. Eyni zamanda, bütün banklar, BOKT-lər və haqqında məlumat toplanan borcalanlar MKR-in məlumatlarından istifadə edə bilərlər. Banklar və BOKT-lər MKR-dən məlumatları real vaxt rejimində elektron formada əldə edə bilərlər. Kredit Reyestri Xidmətindən əldə etdiyimiz məlumata əsasən, ölkənin müxtəlif regionlarından vətəndaşların MKR-ə müraciətlərinin asanlaşdırılması məqsədilə «MKR-də distant sorğu müraciəti» forması işlənib hazırlanmış və Mərkəzi Bankın saytında yerləşdirilmişdir. Müraciət forması notarial qaydada təsdiq olunmalı və şəxsiyyət vəsiqəsinin surəti ilə birgə Mərkəzi Bankın MKR xidmətinə göndərilməlidir. Müraciət MKR xidmətinə daxil olduqdan sonra 3 iş günü ərzində cavablandırılır və müraciət edənin ünvanına göndərilir.

Banklar üçün hər bir sorğunun qiyməti iki manatdır. Bu haqlar bilavasitə banklar vasitəsilə Mərkəzi Bankın xüsusi hesabına ödənilir. Bunun üçün banklar Mərkəzi Bankın xüsusi hesabına depozit yatırırlar. Depozit qoyularkən minimal və ya maksimal məbləğ müəyyən edilmir. Əgər balans bitərsə, bankların öz müştərilərinin kredit öhdəliyi barədə məlumat alması dayandırılır. MKR-ə təqdim edilən məlumatlar kreditlər ödənildiyi tarixdən yeddi il müddətində aktiv elektron baza şəklində saxlanılır. Banklar və BOKT-lər MKR-ə təqdim edilən məlumatların dəqiqliyini təmin etməlidir. Çünki MKR-də məlumatlar yalnız texniki emal olunur və istifadəçilərə təqdim edilir. MKR-in proqram təminatı tərəfindən müxtəlif dövrlərin hesabatları arasında uyğunsuzluqlar aşkar edilərsə, MKR tərəfindən həmin banklardan və BOKT-lərdən təsdiqləyici hesabatlar tələb olunur. Hesabatlar əldə edildikdən və araşdırmalar aparıldıqdan sonra aşkar olunan səhvlər ən geci 7 gün ərzində aradan qaldırılır.

Qeyd edək ki, indiyə qədər banklar və BOKT-lər tərəfindən 380150 sorğu həyata keçirilmişdir ki, onların da 19392-ni BOKT-lərin sorğusu təşkil edib. Mərkəzləşdirilmiş Kredit Reyestrinin məlumatlarına əsasən, kredit alanların sayı ilin əvvəlindən 15%-dən çox artaraq avqustun 1-nə 1.355.346 nəfərə çatıb. Onlardan 8956 nəfəri hüquqi şəxslər, 1.332.213 nəfəri fiziki şəxslər, 14.177-si isə sahibkarlıq subyektləridir. Mərkəzləşdirilmiş Kredit Reyestrində tam ödənilmiş kreditlər də daxil olmaqla cəmi kredit məlumatlarının sayı ilin əvvəlindən 23% artaraq 3.550.477 manata çatıb.

Xidmətdən bildirilən məlumata görə, BOKT-lər MKR-ə ötən ildən qoşulmağa başlamışlar. İndiyə qədər ölkədəki mövcud 27 BOKT-dən məlumatların sistemin tələblərinə uyğun qaydada təqdim edilməsinə nail olunmuş və MKR-ə qoşulan BOKT-lərin sayı 23-ə çatmışdır. Nisbətən kiçik həcmli kredit portfelinə malik daha 2 BOKT-nin də reyestrə qoşulması istiqamətində işlər davam etdirilməkdədir. Digər iki BOKT isə yeni yaradılmış və institusionllaşma mərhələsindədir. Ümumilikdə BOKT-lərin məcmu kredit portfelinin 99%-i reyestrin məlumat bazasında qeydə alınmışdır. Reyestrdən 41 bank və 17 BOKT istifadə etmişdir. Hazırda MKR-in əhatə dairəsinin

genişləndirilməsi prioritet hesab olunur. Məlumat mübadiləsində potensial iştirakçı ola biləcək müəyyən təşkilatlar da mövcud olduğu üçün MKR-in əhatə dairəsinin bank və BOKT-lərin filial şəbəkələrinin reyestrə qoşulması vasitəsilə genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Cari il ərzində 19 bankın filial şəbəkəsinin MKR sisteminə qoşulması təmin olunmuş, 284 bank filialına MKR bazasından birbaşa istifadə etmək imkanı yaradılmış və bankların müraciəti əsasında bu say artmaqdadır.

Arzu İBRAHİMOVA